## Azərbaycan Tibb Universitetinin

# Bioloji kimya

**kafedrasının**

# inkişaf startegiyası

## *KAFEDRANIN İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ*

1. Kafedrada tədris edilən fənlər üzrə tədris-metodiki işin yüksək elmi səviyyədə təşkili və aparılması.

2. Kafedranın profili və elmi proqramlar üzrə üzrə elmi tədqiqatların həyata keçirilməsi.

3. Elmi-pedaqoji və elmi kadrların hazırlanması.

4. Biokimya ixtisaslaşması üzrə iki illik təhsil əsasında magistr hazırlığı.

5.Rezidentura pilləsində təhsil alan həkim-rezidentlərin hazırlığı.

6. Doktorantura pilləsində təhsil alan doktarantlatrın hazırlığı.

# TƏDRİS-METODİKİ İŞLƏR ÜZRƏ

1. Müasir səviyyədə bilik, bacarıq və səriştələrə malik məzunların hazırlanmasını təmin etmək məqsədilə tədris prosesinin müasir təhsil standartlarına uyğun şəkildə təşkili, tələbələrin nəzəri biliklərinin və praktik bacarıqlarının inkişaf etdirilməsi.

2. Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin təcrübəsinə əsaslanaraq müasir standartlara uyğun təhsil proqramlarının hazırlanması və tələbələrin səriştələrinin qiymətləndirilməsi sistemlərinin formalaşdırılması.

3. Yeni elektron tədris materiallarının hazırlanması, mövcud materialların isə elmi yeniliklər və müasir tələblər nəzərə alınmaqla müntəzəm olaraq yenilənməsi.

4. Dünyanın qabaqcıl ali təhsil müəssisələrində istifadə olunan tədris və tədris-metodik ədəbiyyata uyğun olaraq Azərbaycan və ingilis dillərində dərslik, dərs vəsaiti və metodik vəsaitlərin hazırlanması və nəşri.

5. Digər universitetlərin və elmi-tədqiqat institutlarının müvafiq kafedraları ilə elmi və yaradıcılıq əməkdaşlığının genişləndirilməsi və inkişaf etdirilməsi.

# TƏDRİS-METODİKİ İŞLƏR ÜZRƏ

6. Kafedranın professor-müəllim heyətinin pedaqoji və təlim bacarıqlarının inkişaf etdirilməsi, onların müasir təlim texnologiyalarına və innovativ tədris metodlarına uyğun şəkildə ixtisasartırma proqramlarında iştirakının təmin edilməsi.

7. Professor-müəllim heyətinin xarici dil biliklərinin, xüsusilə ingilis dili bacarıqlarının artırılması, beynəlxalq elmi və akademik mühitdə fəaliyyət imkanlarının genişləndirilməsi.

8. Kafedranın kadr potensialının gücləndirilməsi məqsədilə müasir elmi hazırlığa və yüksək dil bacarıqlarına malik gənc müəllim və tədqiqatçıların kafedraya cəlb olunması.

9. Tələbələrin praktik bacarıqlarının daha səmərəli formalaşdırılması üçün dünyanın qabaqcıl ali təhsil müəssisələrində tətbiq olunan müasir təlim metodlarının öyrənilməsi və tədris prosesində tətbiqi.

10. Tədris prosesində informasiya-kommunikasiya və kompüter texnologiyalarından istifadənin genişləndirilməsi və təkmilləşdirilməsi, rəqəmsal tədris platformalarının tətbiqi.

# TƏDRİS-METODİKİ İŞLƏR ÜZRƏ

6. Tələbələrin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsini təmin etmək məqsədilə istifadə olunan sorğu və qiymətləndirmə materiallarının təkmilləşdirilməsi və müasir qiymətləndirmə metodlarının tətbiqi.

7. Kafedrada tədris prosesində problem əsaslı öyrənmə (Problem-Based Learning) və digər interaktiv təlim metodlarının tətbiqinin genişləndirilməsi.

8. Tələbələrin ixtisas üzrə praktik bacarıqlarının artırılması məqsədilə Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi.

9. Magistrantların elmi hazırlığının gücləndirilməsi məqsədilə aparılan tədqiqatların onların ixtisas profilinə uyğun istiqamətlərdə seçilməsi və magistr dissertasiyası mövzularının müasir elmi tələblərə uyğun müəyyənləşdirilməsi.

10. Kafedrada tələbələrin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda formalaşdırılması istiqamətində maarifləndirici və tərbiyəvi tədbirlərin həyata keçirilməsi.

## KAFEDRANIN ELMI-TƏDQIQAT IŞI SAHƏSINDƏ

1. Beynəlxalq qrant layihələrində (Horizon, COST və digər proqramlar) iştirak imkanlarının genişləndirilməsi məqsədilə Avropa və Asiyanın aparıcı ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əməkdaşlıq əlaqələrinin qurulması və birgə layihələrin həyata keçirilməsi.

2. Kafedra əməkdaşlarının elmi fəaliyyətinin gücləndirilməsi məqsədilə tədqiqat nəticələrinin beynəlxalq indeksləşdirilmiş elmi jurnallarda dərcinin təşviq edilməsi, beynəlxalq və milli elmi tədbirlərdə sözlü və poster təqdimatlarla iştirakının genişləndirilməsi.

3. Respublika səviyyəsində elan olunan qrant layihələrində iştirakın təmin edilməsi məqsədilə kafedranın elmi potensialının səfərbər edilməsi və bu istiqamətdə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi.

4. Kafedranın fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni prioritet elmi-tədqiqat sahələrinin müəyyənləşdirilməsi və bu istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi.

Müasir elmi çağırışlar və prioritet istiqamətlər nəzərə alınmaqla yeni elmi-tədqiqat sahələrinin müəyyən edilməsi.

# MADDİ-TEXNİKİ BAZANIN YAXŞILAŞDIRILMASI

1. Kafedranın istifadəsində olan dərs otaqlarının və mühazirə zalının müasir tədris tələblərinə uyğun texniki və maddi-texniki baxımdan yüksək səviyyədə işlək vəziyyətdə saxlanılmasının təmin edilməsi.

2. Tədris və elmi-tədqiqat prosesində istifadə olunan, mənəvi və fiziki baxımdan köhnəlmiş cihaz və avadanlıqların müasir texniki vasitələrlə əvəz olunması və laboratoriya avadanlıqlarının yenilənməsi.

3. Tədris və elmi-tədqiqat prosesinin effektivliyinin artırılması üçün müasir lisenziyalı proqram təminatının tətbiqi və istifadə olunan proqram məhsullarının müntəzəm şəkildə yenilənməsi.

4. Tədris və elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə kafedrada kompüter texnologiyalarının maddi-texniki bazasının genişləndirilməsi və modernləşdirilməsi.

5. Tədris prosesinin səmərəli təşkili məqsədilə tələbələr üçün optimal gigiyenik mühitin təmin edilməsi və kafedrada tədrisə uyğun elmi və metodik ədəbiyyatla zəngin kitabxana fondunun yaradılması.